UNIKAL



# Talış yüksəkliyi uğrunda yağıya qan qusduran igid

***2020-ci ilin sentyabrın 27-də Ali Baş Komandamızın əmri ilə erməni təxribatlarına qarşı aparılan əks-həmlə əməliyyatları başlanan kimi minlərlə Azərbaycan övladı silaha sarılıb qələbə uğrunda mübarizəyə qoşuldu.***

Odlardan, alovlardan keçərək, misilsiz şücaət göstərməklə 30 il yağıya əsir düşən Vətən torpaqlarını 44 günə azad etdilər. İgidlərin qanı, canı bahasına qazanılan bu şanlı zəfərlə bir daha xalqın kimliyi, mənliyi bütün dünyaya bəlli olundu. Cəlilabad rayonunun Göytəpə şəhərində boya-başa çatan Əlikram Xanışov da canını Vətənə fəda edib tarixin yaddaşına iz qoyan qəhrəmanlardan oldu.

İgidlik, mərdlik, vətənsevərlik Əlikramın qanında idi. Odur ki, 20 yaşında Vətənin, millətin yolunda şüurlu surətdə canından keçdi. Və onun qısa ömrü torpağına, elinə-obasına sonsuz məhəbbət mücəssəməsinə döndü. Həm də ölümündən sonra dövlət tərəfindən layiq olduğu "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları Əlikramın keçdiyi fədakarlıqla dolu rəşadətli döyüş yoluna bir şərəf qatır.

Əlikram Qabil oğlu V.Hüseynov adına Göytəpə şəhər 2 saylı tam orta məktəbində oxuduğu zaman tərbiyəsi, biliyi, vətənpərvərliyi ilə müəllimlərinin sevimli şagirdi olub. Hamı onun Vətənə layiqli övlad olmağına inanıb. 2018-ci ildə orta məktəbi bitirəndə isə ləyaqətli, gözəl mənəvi keyfiyyətlərə malik, yurduna sevdalı bir gənc olaraq tanınıb, dərin ehtiram qazanıb. Evdə məqsədini soruşanda bildirib ki, əzəli yurd yerimiz - Qarabağımız ermənilər tərəfindən işğal olunub. Bu yandan qana susamış dığalar günü-gündən azğınlaşır. Onların ilan başını əzmək üçün Vətənə cəsur, qeyrətli oğullar lazımdır. Əsgərlik yaşım da çatıb. Belə bir vəziyyətdə orduda xidmətdə olmaq hər bir gənc üçün böyük şərəfdir.

Əlikram hərbi xidmətə cəbhə bölgəsində başlayıb. Vətənin keşiyində vicdanla durub, əsgəri borcunu şərəflə yerinə yetirib. Nizam-intizamı başqa əsgərlərə də nümunə olub. Hərbi təlimlərdə fəallıq göstərib, qatıldığı hər sınaqdan uğurla keçib. Bütün bunlarla düşməndən alacağı öcə hazır durub. Məqamı gələndə hər qarış torpaq uğrunda son damla qanına qədər döyüşəcəyinə and içib.

Göstərdiyi nümunəvi xidmətlə Əlikram özünə hörmət qazandıran əsgər kimi 2020-ci il aprel ayında evə qayıdıb. 20 gündən sonra düşməndən qisas almaq məqsədilə yenidən hərbiyə qayıdıb. Müharibə zamanı lazımı biliklər qazanmaq üçün iştirak etdiyi təlimlərdə əla döyüş keyfiyyətləri göstərib. Əsgər yoldaşlarına da erməni dığalarına qarşı qeyrətlə, kişi kimi vuruşmağı, yağı gülləsini vecinə almamağı deyib. Nəhayət, 5 ay xidmət etdiyi vaxt Əlikramın gözlədiyi məqam gəlib. O, sentyabr ayının 29-da anası ilə telefonla danışıb. Halalıq istəyəndən sonra müharibə meydanına girib. Talış yüksəkliyi və Suqovuşan istiqamətdə gedən döyüşlərdə əsl şücaət göstərib. Ölüm-dirim savaşlarda dığalara qan qusdurub, onlara ağır itkilər verib. Oktyabr ayının 2-də qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***